AZƏRBAYCAN 3 avqust 2023-cü il

# "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604; 2007, № 5, maddə 442; 2008, № 11, maddə 958; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1148; 2016, № 3, maddə 409, № 10, maddə 1602; 2017, № 1, maddə 6, № 11, maddələr 1957, 1960, № 12, (I kitab), maddə 2223; 2018, № 7 (I kitab), maddə 1390; 2019, № 1, maddə 32; 2021, № 12, maddə 1298; 2022, № 12, maddə 1399) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.20-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 1.0.21-ci maddə ləğv edilsin.

2. 13-1.2-ci maddədə, 13-2.1-ci maddənin birinci və ikinci cümlələrində, 13-2.2-ci maddənin birinci cümləsində, 13-2.3-cü, 13-3.2-ci maddələrdə, 13-3.3-cü maddənin ikinci cümləsində, 13-3.4-cü maddədə, 13-4.2-ci maddənin birinci və ikinci cümlələrində, 13-4.4-cü maddənin birinci abzasında, 13-4.4.5-ci (hər iki halda), 13-4.4.7-ci, 13-4.4.8-ci (hər iki halda) maddələrdə, 13-4.5-ci maddənin birinci abzasında, 13-4.6-cı və 13-4.7-ci maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

3. 13-3.1-ci maddənin birinci cümləsindən ", maliyyə bazarlarına nəzarət orqanının" sözləri və ikinci halda "normativ" sözü çıxarılsın.

4. 13-3.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13-3.5. Milli operator maliyyə xidmətləri göstərdiyi binada (o cümlədən filial və şöbələrin yerləşdiyi binada) Mərkəzi bankdan aldığı lisenziyanın (icazənin) surətini yerləşdirir. Milli operator maliyyə xidmətləri və onların şərtləri barədə məlumatların müqavilə bağlanılmazdan əvvəl müştərilər üçün əlçatanlığını və həmin məlumatların başadüşülən formada əldə edilməsini təmin etməlidir.".

5. Aşağıdakı məzmunda 13-3.7-ci maddə əlavə edilsin:

"13-3.7. Mərkəzi Bank milli operatorun maliyyə xidmətləri sahəsində informasiya təhlükəsizliyinin təmin edilməsinə dair minimum tələbləri müəyyən edir.".

6. 13-4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13-4.1. Milli operatorun maliyyə xidmətləri sahəsində fəaliyyəti üzərində nəzarət tədbirləri, o cümlədən aparılan yoxlamalar Mərkəzi Bank tərəfindən bu Qanuna və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

7. 13-4.3-cü maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Milli operator tərəfindən prudensial normativlərin və tələblərin pozulmasını, onun maliyyə xidmətləri sahəsində fəaliyyətini bu Qanunun, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun və Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərini pozmaqla həyata keçirməsini, Mərkəzi Bankın verdiyi lisenziya və icazəyə daxil edilmiş məhdudiyyətlərin pozulmasını müəyyən etdikdə, yaxud bu cür pozuntulara səbəb ola biləcək əsaslar aşkar etdikdə, o cümlədən "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsaslandırılmış mülahizə hüququndan istifadə edilərkən pozuntunun xarakterindən asılı olaraq Mərkəzi Bankın milli operatora qarşı aşağıda göstərilən təsir tədbirlərini tətbiq etmək hüququ vardır:".

8. 13-6-cı maddə ləğv edilsin.

9. 25-1.2-ci maddədə "Azərbaycan Respublikasının Mərkəzi Bankına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*